AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 3-27-102/3-2/32/2024

Bakı şəhəri "10" iyul 2024-cü il

"Minimum avadanlıq siyahısı (MEL) ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının təkrar uzadılması haqqında Təlimat" adlı sənədin birinci nəşrinin qüvvəyə minməsi barədə

"Minimum avadanlıq siyahısı (MEL) ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının təkrar uzadılması haqqında Təlimat" adlı sənədin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, habelə beynəlxalq standartlar və tövsiyə olunan təcrübə nəzərə alınmaqla 1-ci nəşri işlənib hazırlanmışdır.

Bu Təlimatın əsas məqsədi minimum avadanlıq siyahısı ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən təkrar uzadılması prosedurunun müəyyən edilməsidir.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq, **əmr edirəm:**

1. "Minimum avadanlıq siyahısı (MEL) ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının təkrar uzadılması haqqında Təlimat" adlı sənədin 1-ci nəşri 2024-cü il 15 iyul tarixindən qüvvəyə minsin.
2. "DMAA Forma 160" (Minimum avadanlıq siyahısı (MEL) ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının təkrar uzadılması üçün ərizə forması) sənədi 2024-cü il 15 iyul tarixindən qüvvəyə minsin.
3. Sənədin Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və onun tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin aidiyyəti mütəxəssisləri tərəfindən öyrənilməsi və icrası təşkil edilsin.
4. Sənədin yenilənmiş versiyası DMAA-nın rəsmi internet saytında yerləşdirilsin.
5. Əmr bütün şəxsi heyətə çatdırılsın.
6. Əmrin icrasına nəzarət direktorun müavini Bəhruz Məlikova həvalə edilsin.

Direktor Arif Məmmədov

Dövlət Mülki Aviasiya Agentliyinin
3-27-102/3-2/32/2024 №-li 10 Iyul 2024-cü il
tarixli Əmri ilə TƏSDİQ OLUNUB

Minimum avadanlıq siyahısı (MEL) ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının təkrar uzadılması haqqında TƏLİMAT

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № G-OPS-005

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 10 IYUL 2024-cü il

Bakı

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1. MÜNDARİCAT

0.1. Mündaricat 1

0.2 Səhifələrin Siyahısı 1

0.3 Sənədin Yayılma Siyahısı 1

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 1

1 ÜMUMİ MÜDDƏALAR 2

1.1 Giriş 2

2. Əsas anlayışlar 2

3. İntervalın təkrar uzadılması 3

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 SƏHIFƏLƏRIN SIYAHISI

	Hissə 00	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	10.IYUL.2024	00
2	10.IYUL.2024	00
3	10.IYUL.2024	00
4	10.IYUL.2024	00
5	10.IYUL.2024	00
6	10.IYUL.2024	00
	Hissə 01	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	10.IYUL.2024	00
2	10.IYUL.2024	00
3	10.IYUL.2024	00
4	10.IYUL.2024	00

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 SƏNƏDIN YAYILMA SIYAHISI

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə Nəzarət İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə Nəzarət İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə Nəzarət İdarəsi	DMAA-nın rəsmi saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 DÜZƏLIŞ VƏ DƏYIŞIKLIKLƏRIN QEYDIYYATI

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	10.IYUL.2024	Əmr № **3-27-102/3-2/32/2024**, tarix 10.IYUL.2024	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

1 ÜMUMİ MÜDDƏALAR

1.1 GIRIŞ

1.1.1. “Minimum avadanlıq siyahısı ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının təkrar uzadılması haqqında Təlimat” (bundan sonra – Təlimat) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, habelə beynəlxalq standartlar və tövsiyə olunan təcrübə nəzərə alınmaqla hazırlanmışdır.

1.1.2. Bu Təlimatın əsas məqsədi minimum avadanlıq siyahısı ilə müəyyən edilmiş nasazlıqların aradan qaldırılması intervalının (bundan sonra – interval) Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Agentlik) tərəfindən təkrar uzadılması prosedurunun müəyyən edilməsidir.

1.1.3. Bu Təlimatın müddəaları Azərbaycan Respublikasına mənsub hava gəmisinin istismarçısının (bundan sonra – istismarçı) istifadə etdiyi və Agentlik tərəfindən təsdiq edilmiş minimum avadanlıq siyahılarında qeyd olunan nasazlıqların aradan qaldırılması intervallarına şamil edilir.

1.1.4. “Uçuş əməliyyatlarına dair Azərbaycan Aviasiya Qaydaları”nın ORO.MLR.105 bəndinə əsasən istismarçı müəyyən hallarda “B”, “C” və “D” kateqoriyalı intervalları Agentlik tərəfindən təsdiq edilmiş prosedura əsasən sadəcə 1 (bir) dəfə uzada bilər. Bu səbəbdən, istismarçı tərəfindən artıq uzadılmış intervalın Agentlik tərəfindən təkrar uzadılması xüsusi istisna hal sayılır və yalnız bu Təlimatın bütün tələbləri tam şəkildə yerinə yetirildikdə rəsmiləşdirilir.

1.1.5. İstismarçı nasazlıqların vaxtında aradan qaldırılması, habelə intervalların təkrar uzadılmaması üçün bütün zəruri tədbirləri yerinə yetirməlidirlər. Bu Təlimatda qeyd olunan uzadılma imkanından isə çox nadir hallarda istifadə etməlidirlər.

1.1.6. “A” və “B” kateqoriyalı intervallar Agentlik tərəfindən heç bir halda təkrar uzadılmır. “C” və “D” kateqoriyalı intervallar isə yalnız bir dəfə Agentlik tərəfindən uzadıla bilərlər.

2. ƏSAS ANLAYIŞLAR

2.1. Bu Təlimatda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. əsas minimum avadanlıq siyahısı (MMEL) – dizayn dövlətinin təsdiqi əsasında növ dizaynına görə məsuliyyət daşıyan təşkilat tərəfindən hava gəmisinin növü üçün tərtib olunan, habelə uçuşun başlanması üçün maneə törətməyən nasazlıqların siyahısı;

2.1.2. interval – mövcud nasazlıqla hava gəmisinin istismarına icazə verilən müddət;

2.1.3. minimum avadanlıq siyahısı (MEL) – təyin edilmiş şərtlər daxilində hava gəmisinin müəyyən nasaz avadanlıqla istismarını təmin edən, habelə hava gəmisinin növünə aid MMEL-ə və ya daha məhdud tələblərə uyğun istismarçı tərəfindən hazırlanmış siyahı;

2.1.4. nasazlıq – öz təyinatına uyğun olaraq tam və ya qismən fəaliyyət göstərməyən (işləməyən) komponent, cihaz, avadanlıq, sistem və ya funksiya.

2.2. Bu Təlimatda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

3. İNTERVALIN TƏKRAR UZADILMASI

3.1. “C” və ya “D” kateqoriyalı intervalın Agentlik tərəfindən təkrar uzadılması üçün istismarçı intervalın bitdiyi gündən ən azı 1 (bir) iş günü əvvəldən aşağıdakı məlumatları və sənədləri Agentliyə təqdim etməlidir:

3.1.1. tam və düzgün şəkildə tamamlanmış ərizə forması (DMAA Forma 160);

3.1.2. intervalın təkrar uzadılması üçün hava gəmisinin növ sertifikatının sahibi tərəfindən verilmiş yazılı müsbət rəy (məsələn, “No Technical Objection”, “Approved Deviation to OSD MMEL” və sair);

3.1.3. nasazlığa aid qeydləri əks elətdirən bort jurnalın aidiyyəti səhifələri;

3.1.4. istismarçı tərəfindən intervalı Agentlik tərəfindən təsdiq edilmiş prosedura əsasən ilk dəfə uzatdığı ilə bağlı sübutedici sənədlər (daxili təsdiq və bu təsdiqin verilməsi üçün toplanmış sənədlər);

3.1.5. nasazlığın vaxtında aradan qaldırılması üçün istismarçı və müvafiq texniki xidmət təşkilatı tərəfindən bütün lazımi addımların vaxtında atılması ilə bağlı sübutedici sənədlər (iş tapşırıqları, yazışmalar və sair);

3.1.6. nasazlığın vaxtında aradan qaldırılmamasının istismarçıdan və müvafiq texniki xidmət təşkilatından asılı olmayan səbəblərdən baş verməsinə dair sübutedici sənədlər (ehtiyat hissələrinin bazarda olmamasının və ya çatdırılmasında gecikmələrin olduğunun təsdiqi, nasazlığın aradan qaldırılması üçün lazımi alətlərin və avadanlıqların tapılmasında çətinliklərin olduğunun təsdiqi və sair).

3.2. Bu Təlimatın 3.1-ci bəndində qeyd olunan məlumatlarda və sənədlərdə çatışmazlıqlar olmadıqda, Agentlikdə sənədlər qeydə alındığı gündən sonra 3 (üç) iş günündən gec olmayan müddətdə intervalın təkrar uzadılması haqqında qərar qəbul edilir.

3.3. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə istismarçıya 3 (üç) iş günündən gec olmayaraq məlumat verilir. İstismarçı çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri Agentliyə təkrar təqdim etdikdən sonra müraciətə 1 (bir) iş günü müddətində təkrar baxılır və müvafiq qərar qəbul edilir. İstismarçı çatışmazlıqları 1 (bir) iş günü ərzində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

3.4. Agentlik tərəfindən müəyyən edilən aşağıdakı hallarda intervalın təkrar uzadılmasından imtina edilir:

3.4.1. istismarçı intervalın bitdiyi gündən ən azı 1 (bir) iş günü əvvəldən müraciət etmədikdə;

3.4.2. bu Təlimatın 3.1-ci bəndinə qeyd olunan məlumatlarda və sənədlərdə olan çatışmazlıqlar vaxtında aradan qaldırılmadıqda;

3.4.3. istismarçı intervalın ilk uzadılmasını Agentlik tərəfindən təsdiq edilmiş prosedura uyğun olaraq yerinə yetirmədikdə;

3.4.4. nasazlığın vaxtında aradan qaldırılması üçün istismarçı və müvafiq texniki xidmət təşkilatı tərəfindən bütün lazımi addımlar vaxtında atılmadıqda;

3.4.5. nasazlıq istismarçı və müvafiq texniki xidmət təşkilatından asılı olan səbəblərdən vaxtında aradan qaldırılmadıqda;

3.4.6. istismarçı intervalların təkrar uzadılması üçün müntəzəm olaraq müraciət etdikdə, o cümlədən bu cür halların azaldılması üçün zəruri tədbirləri görmədikdə

3.4.7. intervalın təkrar uzadılması uçuşların təhlükəsizliyinin təmin edilməsinə mənfi təsir göstərdikdə.

3.5. İntervalın təkrar uzadılması haqqında qərar qəbul edildikdə istismarçıya bu barədə təsdiq məktubu verilir. İnterval daha öncə istismarçı tərəfindən uzadılmış intervalın bitdiyi tarixdən MEL ilə müəyyən edilmiş interval müddətinə və ya daxil olmuş məlumatlara və sənədlərə əsasən bu müddətdən daha az müddətə uzadılır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB